**Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında**

**Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:**

**Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti təsdiq edilsin.**

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **Sahibə Qafarova**

**Bakı şəhəri, 30 dekabr 2020-ci il**
**№ 252-VIQR**

Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN MÜRACİƏTİ

**Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!**

Sayına, intellektual və mənəvi potensialına görə dünyanın böyük millətləri sırasında layiqli yer tutan qüdrətli Azərbaycan xalqının övladlarını dil, əqidə, əməl birliyinə çağırış günü ərəfəsində hər birinizi səmimi qəlbdən salamlayırıq.

Bu il dünya azərbaycanlıları 31 dekabr – həmrəylik gününü son dərəcə böyük ruh yüksəkliyi ilə qarşılayırlar. Ümummilli məqsəd naminə birləşib dəmir yumruğa çevrilməyi bacarmış Azərbaycan xalqı və onun qəhrəman Ordusu müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistan silahlı qüvvələrini darmadağın edərək torpaqlarımızın işğalına son qoymuşdur. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın düşmən işğalından azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması xalqımızı 30 ildən artıq davam edən məğlubiyyət sindromundan qurtarmış və onu qalib xalqa çevirmişdir.

Azərbaycançılıq amalı ətrafında milli-mənəvi bütövləşmə hərəkatının başlanğıcını qoymuş ulu öndər Heydər Əliyevin vəsiyyəti şərəflə yerinə yetirilmişdir. Bu gün Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Ağdamda, Laçında, Şuşada və azad edilmiş digər torpaqlarımızda şanlı Azərbaycan bayrağının dalğalanması ölkəmizin tarixində yeni inkişaf dövrünün başlandığını təcəssüm etdirir.

Bu tarixi zəfərə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız və həmvətənlərimiz də dəyərli töhfə vermişlər. Siz doğma Azərbaycanımızın haqq işi naminə qüvvələrinizi birləşdirərək yaşadığınız ölkələrin dövlət orqanlarına və ictimaiyyətinə Vətən Müharibəsi barədə doğru-düzgün məlumatları çatdırmış, lazım gəldikdə kütləvi tədbirlər keçirərək, səsinizi ucaltmısınız.